Təhsilin İnkişafı Fondu ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Təhsilin inkişafında innovativ metodlar" müsabiqəsini elan edir.

Müsabiqənin məqsədi ulu öndərin elmə, təhsilə və gənclərə qayğısını rəhbər tutaraq tələbələrin təhsilin inkişafına töhfə verəcək ideyalarını dəstəkləməkdir.

İki mərhələdən ibarət olan müsabiqədə yerli ali təhsil müəssisələrinin bakalavr və magistrları aşağıdakı mövzulardan biri üzrə ideya və təkliflərini təqdim etməklə iştirak edə bilərlər:

- inklüziv təhsilin inkişafı;
- qeyri-formal təhsil metodları;
- təhsildə texnologiyanın tətbiqi;
- təhsildə idarəetmə.

I mərhələdə iştirakçılar tərəfindən hazırlanan təqdimatda məsələnin qoyuluşu, innovativ yanaşma və icra planı öz əksini tapmalıdır. Təqdimatlar mövzunun aktuallığı, faydalılığı, məzmun və dizayn kimi meyarlar üzrə qiymətləndiriləcək.

II mərhələdə iştirak hüququ qazanan namizədlər isə təkliflərini müsabiqə mövzuları üzrə peşəkar mütəxəssislərdən ibarət münsiflər heyətinə təqdim edəcəklər.

II mərhələnin meyarları (təqdimat bacarığı, fikirlərin əsaslandırılması və vaxtın idarəedilməsi) üzrə ən çox bal toplayan ilk 3 finalçı qalib olacaq. Təqdimat üçün maksimum müddət 7 dəqiqə müəyyən edilib.

Mükafatlandırılma aşağıdakı formada aparılacaq:

I yer – 1000 AZN
II yer – 750 AZN
III yer – 500 AZN

Müraciət üçün keçid: https://forms.gle/jCg2EvdUvBKVafJA7

Müraciət üçün son tarix: 27 aprel saat 18:00.

Qeyd: Təqdimatlar Azərbaycan dilində olmalıdır.